# "Euronews": "İlham Əliyev Qərbi "ikiüzlülükdə" ittiham etdi"

euro news. Latest Europe World EU Policy Business Euroviews Next Green Health Culture

**Aliyev criticises Western nations' stance on fossil fuels at COP29 opening speech**



**Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) öz işini davam etdirir. Bu mötəbər konfransın Bakıda keçirilməsi Azərbaycan üçün çox mühüm hadisədir. Konfransın məqsədi iqlim dəyişmələri ilə mübarizə aparmaq, onun təsirlərini azaltmaq, iqlim dəyişmələrinə uyğunlaşmaq, maliyyə məsələlərini müzakirə etmək və ölkələrin üzərinə düşən öhdəliklərin yerinə yetirilməsini təmin etməkdir.**

Həmçinin konfransda bəzi həqiqətlər də səslənir və dünya bir daha reallıqlara şahidlik edir. Konfransda çıxış edən Prezident İlham Əliyevin Qərb ölkələrini ikiüzlülükdə günahlandırması da Avropa və dünya mətbuatının diqqətindən yayınmayıb. Bu barədə məlumat verən "Euronews" telekanalının müxbiri Corcia Orlandi bildirib ki, Azərbaycan Prezidenti COP29-da açılış nitqindən istifadə edərək Qərbin bəzi ölkələrinin hökumətlərini riyakar və ikiüzlü siyasətlərinə görə ciddi şəkildə ittiham edib: "Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət - istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis - bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz "yaşıl keçid"in güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda biz realist olmalıyıq".

Digər ittiham məsələsinə gəldikdə, Azərbaycan Prezidenti bildirib ki, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. "Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib".

Təxminən bir ildir ki, Bakıda COP29-un boykotunu təşviq edən dairələrə də Prezident İlham Əliyev mesaj ünvanlayıb: "Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz"!

Telekanal xəbər verir ki, Azərbaycan liderinin sözləri COP29 iştirakçıları arasında ajiotaja səbəb olub. Onlardan bəziləri "Euronews"a fikirlərini bildiriblər.

Kingbadanti Sabir (Global Shapers, Dhaka Hub, Dünya İqtisadi Forumu): "O, haqlıdır, çünki təbii ehtiyatların müəyyən ölkələrdə olması həqiqətən Allahın planıdır. Onun ikiüzlülüyə işarə etməsi həqiqətən də təqdir etməli olduğumuz bir şeydir. Bu doğrudur. Amma eyni zamanda mədən yanacaqların zərərli olduğunu biz inkar edə bilmərik. Buna cavab olaraq nə edə bilərik? "Yaşıl enerji"yə keçidi sürətləndirmək üçün bütün səylərdən istifadə etməliyik .

Əsəd Rəhman ("War on Want" QHT): "Hər kəsi hərəkətə gətirəcək yeganə yol, hər şeyi ədalətli etməkdir. Azərbaycan Prezidenti haqlıdır ki, siqnallar əlbəttə, çox böyük çirkləndiricilərdən gəlməlidir. Yüz ildən artıqdır ki, onlar torpağı və atmosferi çirkləndirənlər. ABŞ-nin nə etdiyi, Avropa İttifaqının nə etdiyi, Böyük Britaniyanın nə etdiyi önəmlidir, çünki bu, mesaj verir".

Reportajın sonunda qeyd olunur ki, İlham Əliyevin çıxışı yekun razılaşmanın təfərrüatları ilə bağlı mürəkkəb danışıqlar ərəfəsində toplaşan liderlər üçün ton təyin edib.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 14 noyabr (№ 250).- S.15.